# ARZULARIM ƏRŞƏ ÇƏKİLİB



*İLTİMAS SƏMİMİ*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*
*Prezident mükafatçısı*

### O İNCƏ SƏSİN

O qara gözlərdə xoş bir səadət,
Ürəyin sevinci bir ümman qədər.
Nə vaxtsız ölüm var, nə acı həsrət,
Nə də ki ömrümüz ötüşür hədər.

Bu sevda bizimdir, sevinək birgə,
Təklikdən darıxıb bezikir ürək.
Hicran üstümüzə salmasın kölgə,
Xoşbəxtlik dəmidir, sevgidən deyək.

Vaxtsız haqqlamasın ayırılıq bizi,
İztirab çəkməyə doğulmamışıq.
Oxşasın ulduzlar ürəyimizi,
Nə soyuq payızıq, nə qarlı qışıq.

Dilimdən süzülən misralar kimi,
Xoşbəxtlik qoxuyur ılıq nəfəsin.
Gəldin sən ömrümə bir bahar kimi,
Coşdurdu qəlbimi o incə səsin.
02.01.2023.

### DAŞ OLA

Yoxluğuna dözümsüzdür
Həsrətindən
Köz -köz yananlar.
Sənə sarı bir yol uzanır,
O yolu bir kimsə
Adlaya bilmir.
Ayrılıq qoxuyur,
Ümidi hər şeydən üzülənlərin
Yarpaq-yarpaq saralan
Baxışlarını
İnsana xatırladır.
Xatirələrin
Hələ bir kimsəyə
Təsəlli olmayıb,
Yoxluğuna tablamağa
İnsan gərək daş ola.
03.01.2023.

### ÜZMƏKDƏDİR

Acı xatirələrin
Ötən illəri xatırlamaqdadır.
Bahar da hicran qoxuyur,
Yolun yağışlı payızdan,
Çovğunlu qışdan keçir.
İçində intihar edən arzuları
Tabut-tabut daşımaq da
Bir dərddir.
Bu da sükuta qərq olmuş
Dəniz.
Balıqların şirin yuxusu
Xəyallara qərq olanların
Ümidini üzməkdədir.
05.01.2023.

### BU İZDİHAM

Hardan gəldi bu ayrılıq,
Göz yaşlarım
Paralanmış ürəyimin
Ağrısıdır .
Sənsiz bahar da
Mənə qışdır.
Közü sönmüş ocaq kimi,
Təklik mənə bir dağ kimi.
Məni ovundura bilməz,
Nə səhərin açılması,
Nə yollarda bu izdiham.
05.01.2023.

### ÇƏTİN İMİŞ

Ümidsiz olmağını
Gizlədə bilmədin.
Xəyalında
Bütün qapılar qıfıllı,
Bütün yollar bağlı.
Küləyə də,
Yağışa da dözdün.
Heç kimin
Bacara bilmədiyi kimi,
Sən də bacarmadın.
Çətin imiş
Əzablı bir ömrü
Əynindən soyunmaq.
06.01.2023.

### GÜNƏŞƏ SARI

Çevirsin yağışa, dönsün küləyə,
O ərşə çəkilmiş şirin yuxular.
Xəyalla dalmaq da dərddir ürəyə,
O dolan gözlərin intizarı var.

Üzünə bağlanıb sanki qapılar,
O əngin göylərə dərdini danış.
Nə səni arıyıb axtaran olar,
Nə həmdəm tapılar, nə də ki tanış.

Sızlayar ürəyin həsrət kəçməkdən,
Necə də yamandır tənhalıq, barı.
Tale sınağından heç usanma sən,
Bir yol var, uzanır günəşə sarı.
09.01.2023.

### BEZDİRDİ

Keçmişi xatırlamaqdan
Bir addım da
Geriyə düşdün.
Bu yoxuşlu yolları yermək
Çoxların taleyinə
Yazılıb demə...
İçində bir ölüm xofu,
Bahar yağışına bənzəyən
Göz yaşların
Yorulub əldən düşməyin,
Yaddaşında xatirələrin
Köz-köz yanmağından danışır.
Dərdləşməyə
Bir kimsəni tapmadın,
Sükut səni də bezdirdi.
12.01.2023.

### QOY DƏNİZİN YUXUSU QARIŞSIN

Bu ildırım səsi
Bir köməksizin ahıdır,
Bu yağış isə göz yaşları.
Baxışları göy üzü tək tutqun,
Nəfəsi ölüm qoxuyan,
Ömürdə bircə dəfə sevinməyən,
Yuxusu ərşə çəkilmiş,
Talesiz insan.
Bu küləkli payız
Sənə matəm saxlayır.
Nalən küçə-küçə,
Yol-yol dolaşmaqdadır.
Sən də qoşul küləyə,
Küləklə başbaşa
Çırpıl Xəzərin sularına,
Qoy dənizin yuxusu qarışsın.
12.01.2023.

### BAŞDAŞIM MAMIRLANAR

Göy üzü tutqun olanda
Kölgəmi
Göylərdə axtarıram.
Kölgəm kimi
Bir gün mən də itəcəyəm
Sevdiklərimin xəyalından,
Dostlarımın yaddaşından,
Doğmalarımın gözündən.
Qarışaram torpağa,
Məzarımı yağış döyər,
Başdaşım mamırlanar.
13.01.2023.

### KÖNLÜM

Tablamaz ürəyim bir an da sənsiz,
Ayrılıq olmasın, həsrət olmasın.
O xoş sözlərindən ilhamlanıram,
Qəlbim dərd əlindən qoy yorulmasın.

Ruhumu incidən təklik əzabı,
Yenə xəyalımda xatirələrin.
Bu qədər ağrını daşımaq çətin,
Unutqan deyiləm görünür yerin.

Çiçəyə baxıram elə bil sənsən,
Ləçəklər nur saçır üstümə, gülüm.
Göylərdə sayrışan ulduzlar kimi.
Sənin eşqin ilə nurlansın könlüm.
15.01.2023.

### BELƏ

Ümidi üzüldükcə
Göz yaşları
Bahar yağışına dönən,
Halına bir kimsə yanmaz.
Daş ürəklərdə
Mərhəmət olmur.
Nə cəhənnəm əzabından xofu var,
Nə Allahdan qorxusu.
İncidər ürəkləri,
Qırar qəlbləri.
İçində bir zülmət olan nadanlar
Ruhunu duymaz.
Gizlət göz yaşlarını
Qoy nadanlar görməsin.
Sevinər halına
Bir ömür belə.
16.01.2023.

### ÜSTÜMƏ NUR SAÇIR

Qəlbimdən keçəni gözümdən duydun,
Sönməz bu eşqimin atəşi belə.
Könlümdə bir ömür xatirələrin,
Səndən ilhamlanır qələmim hələ.

Çırpınır ürəyim misralarımda,
Yazdığım şeirlər doğmadır sənə.
Hər sözüm təsəlli dərdin olmasın,
Sevənə ümiddir məhəbbət yenə.

Elə bil başımdan dağıldı duman,
Sənin həsrətindən qurtuldu ürək.
Bu görüş, bu vüsal xoşbəxtliyimdir,
Üstümə nur saçır camalın ay tək.
17.01.2023.

### BOYLANIR SÜKUT

Saçını yad əllər sığalladımı?
Dönmüsən saralmış çiçəyə daha.
İstisi yox olmuş sönən ocaq tək,
Yoxdur ürəyində ümid sabaha.
Daha əvəvlki tək coşmur ürəyin,
Başının üstündə bir qara bulud.
Yalançı vədlərə alanmısan sən,
Fəqət gözlərindən boylanır sükut.
19.01.2023.

### ACI BAXIŞDIR

Ürəyi göynədən təklik əzabı,
Açılan hər səhər gözündə zülmət.
Qurtula bilməyir bu iztirabdan,
Ömürünə yazılan bu bəxt, bu qismət.

Acı intizardan gözləri dolub,
Dayanıb yollara baxır hər axşam.
Tənhalıq qəlbinə min bir dağ çəkir,
Alın yazısından bezikib tamam.

Yazın istisinə qızına bilmir,
Yaz da tənhalara payızdır, qışdır.
Könül ovundurmur əngin üfüqlər,
İnsanı kövrəldən acı baxışdır.
21.01.2023.

### ÇOXU MƏNİ İNCİTDİ

Çoxu məni incitdi,
Ürəyində sevinc,
Üzündə təbəssüm,
Payızın yağışından,
Qışın sazağından xəbərsiz,
Gecədən səhərəcən
Xatirələrlə baş-başa
Hönkür-hönkür ağlamağın
Nə olduğunu bilmədən
Qəlbimə toxunub
Keçib getdilər.
Axıtdım içimə göz yaşlarımı,
Nə göy bildi,
Nə yer duydu,
Nə dəniz anladı.
Nə bir tanış,
Nə bir yaxın sormadı ki
Dərdin nədir?
Gözündə nəm,
Üzündə qəm,
Nədən belə
Yarpaq-yarpaq saralmısan?
23.01.2023.

### ÖZ NİSGİLİM VAR

Yenə o çağları dolanan xəyal,
Sayı bilinməyən xatirələr var.
Rahatlıq tapmayır köksümdə ürək,
Təklikdən sızlayıb solur arzular.

Arzusu azacıq dinclikdir yalnız,
O da yuxu kimi çəkilib ərşə.
Ümidi tükənən kimsəsizlər tək,
Çətin qismətimə rahatlıq düşə.

Tüstüsü görünməz atəşim, odum,
Kül olar içimdə fəqət arzular.
Nə qaya duyacaq, nə daş anlayar,
Öz dərdim, öz qəmim, öz nisgilim var.
24.01.2023.

